BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2025

UOT 94 (479.24)

# QIZILBAŞ TÜRKMANLARIN SƏFƏVİYYƏ TƏRİQƏTİNDƏKİ FƏALİYYƏTLƏRİ

**Günel Ə.RƏHİMLİ***

*Səfəviyyə təriqəti şeyxlərinin siyasi hakimiyyət uğrunda apardıqları uzun mübarizənin uğurla nəticələnməsinin əsas səbəblərindən biri ona inanan qüvvələrin mövcudluğu olmuşdur. Şah İsmayıl kimi bir liderin rəhbərliyi və qızılbaş ideologiyasına sadiq qüvvələrin birliyi nəticəsində Səfəvilərin şeyxlikdən başlayaraq apardıqları mübarizə şahlığın qurulması ilə yekunlaşmışdır. Bu qələbədə xüsusi rol oynamış Qızılbaş türkman tayfalarının fəaliyyətinin araşdırılması isə Azərbaycan tarixinin az tədqiq edilmiş bir mövzusuna işıq salacaqdır. Məqaləmizdə Qızılbaş türkman tayfalarının fəaliyyəti, mənbələrin və tarixşünaslıq əsərlərinin analizi, təhlili və müqayisəsi əsasında tədqiq edilmişdir.*

**Açar sözlər**: Səfəviyyə təriqəti, Şeyx Cüneyd, Şeyx Heydər, Qızılbaş türkmanlar, Anadolu

**Giriş.** Orta əsrlər dövründə İslamda təriqətləşmənin genişləndiyi bir vaxtda, Azərbaycan tarixində həm dini istiqamət olaraq, həm siyasi fəaliyyət olaraq dərin izlər qoymuş Səfəviyyə təriqətinin əsası qoyulmuşdur. İlk Səfəvi şeyxləri dövründə sufi dərviş təriqəti kimi tanınan təriqət, sonralar Şeyx Cüneydin (1447-1460) Səfəvi şeyxi olması ilə siyasi mübarizəyə qoşulmuş eyni zamanda, təriqət daxilində dini istiqamət olaraq şiə meylləri ortaya çıxmışdır. Şeyx Cüneyd, siyasi maraqları səbəbilə bölgənin hökmdarı Qaraqoyunlu Cahanşahın (1435-1467) tələbi ilə Ərdəbili tərk edərək Anadoluya gəlmişdir. Bu qərar, Anadolu türkman tayfalarının əksəriyyətini təriqətə birləşdirmək üçün geniş imkanlar yaratmışdır.

Şeyx Cüneyddən sonra, təriqətin rəhbəri olan oğlu Şeyx Heydər (1460-1488) müridlərinin başına 12 imamı simvolizə edən 12 qırmızı dilimli papaq qoymalarını tələb etmişdir. Bu dəyişiklik, təriqət tərəfdarlarının "qızılbaş" adını almasına səbəb olmuşdur. Təriqətə xidmət edən türkmanlar da "qızılbaş" adlan-

* Qərbi Kaspi Universiteti və Bakı Dövlət Universitetinin müəllimi; tarix üzrə fəlsəfə doktoru; rahimli.gunel.ashraf@bsu.edu.az; ORCİD İD: 0000-0002-5946-2969

dırılmış və təriqətin siyasi uğurlarında əhəmiyyətli rol oynamışlar.

Səfəviyyə təriqəti dini ideoloji istiqamətini siyasi məqsədlərlə birləşdirərək, Azərbaycanın siyasi tarixində əhəmiyyətili mövqe tutması, Səfəviyyə təriqətinin ideoloji əsasları, cəmiyyət içindəki mövqeyi və siyasi fəaliyyətləri müasir dövrdə tədqiqatçıların diqqətini cəlb edən mühüm məsələlərdəndir. Səfəviyyə təriqətini qələbəyə aparan tərəfdarlarının mövqeyini öyrənmək Azərbaycan tarixi üçün vacib məsələlərdən biridir. Ona görə də məqaləmizdə tarixi mənbələri və müasir yanaşmaları da nəzərə alaraq Səfəviyyə təriqətinə xidmət edərək onun siyasi qələbəsində mühüm rol oynamış Qızılbaş türkman tayfalarının rolu və təsiri məsələsi təhlil edilmişdir.

**Türkman tayflarının Səfəviyyə təriqətini dəstəkləməsi.** İlk öncə qeyd edək ki, "türkman" adının ortaya çıxması IX-X əsrlərə təsadüf edir. Bu ad Mavərinnəhrdə yerli əhali arasında İslamı qəbul edən oğuzları digər oğuzlardan ayırmaq üçün istifadə edilmişdir [1, 607]. Yerlilər tərəfindən "müsəlman türk" mənasında istifadə olunurdu. Türkman sözünün kökünün hardan qaynaqlandığı haqqında əsas iki fikir mövcuddur. Birinci fikrə görə, türkman sözü türkcə "türk" və farsca "man" (manənd) adlarından yaranıb və türkə bəzəyən mənasına gəlir. İkinci fikirə görə isə türkman sözünün kökü "türk-ül iman"dan gəlir. R. Ağayev yazır ki, türkman adına Mahmud Kaşğarinin "Lüğətində"də rast gəlinir və Kaşğari bu sözü "Türk mən", yəni "mən türkəm" kimi izah edir [2, 15]. Müasir dövrdə türkman sözünün mübaliğə bildirən şəkilçi olduğu və öztürk mənalarına gəldiyi haqqında fikirlər də söylənməkdədir [1, 608].

Əvvəllər Orta Asiyada, Azərbaycan və İraqda yaşayan türkmanlar Səlcuqluların Anadolunu fəthi ilə bu ərazilərdə məskunlaşmağa başlamışlar. Bura köçən türkman ailələrin əksəriyəti yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olan tayfaları olmuşdur. Daim yeni ərazilər axtarışında olan bu türkman ailələri təsərrüfat və maldarlıq üçün əlverişli ərazi olan Anadoluya doğru hərəkət etmişlər. Digər tərəfdən ərazilərinə qatdıqları Andoluda müsəlman türklərin yerləşməsində maraqlı olan Səlcuqlu dövləti onların köçməsi üçün şərait yaratamaqda idi. Türkmanlar təkcə Anadoluda deyil, həmçinin Səlcuqlunun təsir dairəsinə daxil olan digər ərazilərdə də yerləşdirilirdilər. Bu türkman ailələrin bir hissəsi tam oturaq həyata keçsə də, bir qismi Səlcuqlulardan sonra Osmanlı hakimiyyəti dövründə də yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olmağa davam edirdilər.

Fateh Mehmetin İstanbulu fəth etməsindən sonra (1453) Osmanlı ərazisində müstəqil fəaliyyət göstərən ayrı-ayrı bəyliklərin mərkəzləşmiş dövlətə birləşdirilməsi prosesi gücləndirildi. Buna tam nail olmaq üçün isə əhalini tam oturaq həyata keçirmək lazım gəlirdi. Bu isə uzun illərdir yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olmağa alışmış türkman ailələrinin narazılığına səbəb olurdu. Osmanlının yürütdüyü bu mərkəzləşdirmə siyasətinə uy-

ğun olaraq belə tayfaların tam oturaq həyata keçməyə məcbur edilməsi və qəbul etməyənlərin üzərlərinə vergilər qoyulması, onların Osmanlıdan soyumalarına və Səfəvilərə daha çox meyl etmələrinə təsir edən əsas amil olmuşdur.

Beləliklə, özlərinə yeni bir dayaq axtarışında olan türkmanlar onlara yeni imkanlar vəd edən Ərdəbil dərgahına yönəlirlər. **Anadoluya gələn Səfəvi Şeyxi Cüneyd (1447-1460) burada öz məqsədlərinə çatmaq üçün bəlkə də ümid etmədiyi dərəcədə əlverişli zəmin tapmış olur** [3, 10]. Həmin dövr Osmanlı tarixçisi Aşiq Paşazade yazır ki, fikirlərini qəbul etdirmək qabiliyyətinə sahib olan və eyni zamanda da fəal insan olduğu məlum olan Səfəvi Şeyxi gəzdiyi kəndli və türklər arasında sayı heç də az olmayan topluluğu özünün müridinə çevirə bildi [4, 265].

Osmanlının II Bəyazid dövründə (1481-1512) yürütdüyü siyasət Anadolu türkmanlarının Səfəvilərə yönəlməsi prosesini daha da sürətləndirmişdir. Faruk Sümer yazır ki, təriqətin Anadoluda yayılmasında II Bəyazidin möhkəm olmayan siyasətinin də mühüm rolu olmuşdur. Onun dövründə Anadoludakı Şiə meylli xalqla yanaşı, Sünni əhaliyə qarşı da təqiblər olmuşdur. Təriqətin Anadoluda yayılmağında və Səfəvilər dövlətinin qurulmasında II Bəyazid də məsuliyyət daşıyır [3, 13].

**Türkman tayfalarını Səfəviyyə təriqətinə yönəldən bir digər səbəb onların İslamı anlama və yaşama şəklinin Səfəvilərlə yaxınlıq təşkil etməsi idi. Türkman tayfaları İslamı qəbul etdikləri halda, öz keçmiş dini inanclarını tam olaraq unutmamış, İslami fikirlərini keçmiş inancları ilə sanki sintez etmişdilər. Anadolunun türkman ailələri də şifahi İslamın nümayəndələri olaraq qəbul olunmuşlar.**

Anton İosef Dierl isə Türküstandan şərqə köçən türkmanlar haqqında yazır ki, onların İslamı seçmələri uzun sürmədi. Ancaq onların qəbul etdiyi qatı və cansız ortodoks İslam deyildi. Onların mənimsədiyi İslamiyyət araik-şamanist ünsürləri özündə qoruyub saxlayan, fantaziyalarla zəngin, canlı, elastik bir dərvişlik idi. [5, 32-33]. Belə ki, türkmanlar həyat tərzləri ilə bağlı olaraq İslamı mədrəsədə öyrənmək imkanına malik deyildilər ona görə də həmin türkman ailələri İslamı gəzərti dərvişlərdən eşidərək öyrənmişdilər və öz adət-ənənələrini də qoruyaraq İslamı qəbul edir və yaşadırdılar. Onlar İslamdan öncə şamanizm dininə sitayiş etdikləri üçün şamalığın bir sıra rituallları da onların adətlərinə çevrilmişdi. İslamı qəbul etdikləri halda bu adətləri yaşatmağa davam edirdilər. M. Eröz bunu belə ifadə edir ki, şamanlıqdan ayrılaraq İslamı qəbul edən türklər arasında bu yeni din fərqli şəkildə mənimsənilirdi. Şəhər mərkəzlərində bütün şərtləri ilə mənimsənilib yerinə yetirilən İslam dini keçmiş adət və ənənələrini hələ də tam tərk etməmiş olan yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olan türk tayfaları tərəfindən isə keçmiş dini inancları ilə birlikdə yoğrularaq qəbul edilirdi" [6, 141]. Ahmet Yaşar Ocak isə yazır ki, bu türklərin keçmiş tarixinə baxdığımız zaman onların

bütün zamanlarda yeni dinə keçdiklərində keçmiş inanclarını da yeninin daxilinə qatdıqlarını və bu şəkildə İslama qədər gəlib çatdıqlarını görürük [7, 81]. X əsrdə türkman tayfaları İslamı mövcud həyat tərzinə uyğun olaraq şifahi bir mədəniyyətlə uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalırlar. Köhnə qamlar yeni ozanlar, dərviş və şeyxlər olurlar. İslamı bu şəkildə anlayan türkmanlar, onların bu yaşayış tərzinə bənzərliyi ilə seçilən Səfəviyyə təriqətinə meyl edirlər.

**Qızılbaş Türkmanların Təriqətin Təbliğində Xidmətləri.** Qızılbaş olaraq yetişən türkmanlar, Səfəvi ideologiyasının yayılmasında mühüm rol oynayırdılar. Səfəvi şeyxləri təriqətin təbliği üçün əsasən türkman xəlifələri vəzifələndirirdilər. Bu xəlifələrə, göndərildikləri ərazilərdə təriqətin ideologiyasını yaymaq vəzifəsi verilirdi. Müneccimbaşı yazır ki, Anadoluda Səfəviyyə təriqətinə aid xüsusi xəlifələr fəaliyyət göstərirdi. Səfəvi dövlətinin qurulmasında əhəmiyyətli faktorlardan biri bu xəlifələr idi [8, 428]. Onlar, təriqətin güclü təməl üzərində durmasını təmin etmək üçün maddi vəsait toplamaqla da məşğul idilər. Toplanan vəsaitlər gizli şəkildə Ərdəbil dərgahına göndərilirdi. Bu cür sərvətin Ərdəbilə axması o həddə çatmışdı ki, bu Səfəvilərin əsas maliyyə qaynağına çevilmişdi.

Təriqətə bağlı olanlar təkçə nəzir və yardım göndərməklə kifayətlənmir. Həm də Səfəvi şeyxlərinin istəyi ilə üsyanlara başladır və etiraz səslərini ucalda bilirdilər. Səfəvi xəlifələrindən biri olan Həsən Xəlifə, Anadolunun Təkəli oymağından idi və Osmanlıya qarşı üsyan qaldıran Şahqulunun (Osmanlıda daha çox Şeytanqulu ləqəbi ilə tanınmışdır) atası idi. Həsən Xəlifə Təkəli oymağında Səfəvi xəlifəsi olaraq fəaliyyət göstərirdi və Şeyx Cüneydin Anadolu səfəri zamanı oymağı ilə birlikdə Səfəvi şeyxinə tabe olmuşdu. O, Şeyx Cüneydin ölümündən sonra oğlu Şeyx Heydərin də əsas xəlifələrindən biri olmuşdur. Həsən Xəlifənin ölümündən sonra isə Təkəli oymağının başına oğlu Şahqulu keçdi [9, 321]. Bu əlaqə, Şahqulu üsyanında Səfəvilərin də təsirini göstərir. Hətta bəzi mənbələrə görə, Səfəvi xəlifələrinin bir vəzifəsi də Osmanlı əleyhinə təbliğat apararaq bu cür üsyanları təşviq etmək idi. Türkiyə tarixşünaslığında 1512-ci ildə baş verən Nurəli Xəlifə üsyanının Səfəvilərin təşviqi ilə olduğu qeyd olunur [10, 127].

Anadolu türkman əhalisinin Ərdəbil təkkəsinə simpatiyasını artırmaq və təriqət haqqında məlumatlandırmaq Səfəvi xəlifələrinin əsas vəzifəsi idi. Bu məqsədlə, xəlifələr Ərdəbildən Anadoluya Şiə məzhəbinə aid kitablar gətirir və bu kitabları əhaliyə paylayırdılar. Həmçinin xəlifələr Anadolunun müxtəlif yerlərindən insanların cəm halda Ərdəbilə köç etməsi üçün şərait yaradırdılar. Bu köçlər, Səfəvilərin dövlət qurmaq üçün lazım olan hərbi gücü təmin etməsinə kömək edirdi. Anadolu türkman ailələrinin bu köçləri, Səfəvi dövlətinin qurulmasından sonra da davam etmiş və iki əsr boyunca sürmüşdür [3, 4]. Aşiq Paşazadə bu köç dalğasını belə təsvir etmişdir:

*Türklər tərk edib diyarlarını,*
*Satdılar yox bahasına davarlarını* [4, 198].

Türkman tayfalarının qızılbaşlaşan hissəsi, Səfəvi dövlətinin qurulması ilə Osmanlı torpaqlarını tərk edib Səfəvi ərazilərinə yerləşməyə başlamışdır. Vladimir Minorski, Kiçik Asiyadan İran platformasına üç böyük köç dalğasının baş verdiyini qeyd edir: bunlardan birincisi Qaraqoyunlu, ikincisi Ağqoyunlu, üçüncüsü isə Səfəvilər dövründə olmuşdur [11, 12]. Osmanlının türkmanların bu köçünə qarşı aldığı tədbirlər nəticəsiz qalmışdır və Anadoludan çoxlu sayda Səfəvi müridi köç etmişdir. II Bəyazidin sərhədləri bağlamaq üçün verdiyi fərmanlar belə, reallıqda tətbiq edilməmişdir.

II Bəyazid Qızılbaş türkmanlara qarşı xüsusi tədbirlər görməmişdir, ta ki, 1496-cı ildə ona qarşı sui-qəsd edilənə qədər. Bu hadisə, Sultan Bəyazidin qızılbaşlara qarşı tədbir görməyə başlamasına səbəb olmuşdur [12, 412]. Ancaq buna baxmayaraq, Səfəvi təbliğatı davam etmişdir. Şahqulu üsyanı buna bariz nümunədir. 1511-ci ildə Anadoluda baş verən bu üsyan Osmanlı qüvvələri tərəfindən zorla yatırılmışdır və üsyandan sonra 15 minə qədər türkman Səfəvi ərazisinə köçmüşdür [3, 33].

Osmanlı dövləti türkmanlar və Səfəvilər arasındakı əlaqələri kəsmək üçün tədbirlər görmüşdür. Sultan Bəyazid Səfəvilərə qarşı yumşaq davranmış, lakin Sultan Səlimin taxta çıxması ilə türkmanların sərhədi keçməsi tam qadağan edilmişdir. Türkmanların Səfəvi eşqi ilə hərəkət etməsi, Pir Sultan Abdal kimi ozanların şeirlərində də əksini tapmışdır:

*Dost əlindən dolu içmiş dəliyim,*
*Üstü qan köpüklü meşə seliyim,*
*Bən bir yol oğluyum yol səfiliyim,*
*Bən də bu yayladan Şaha gedərim* [13, 14].

Səfəvi rəhbərlərinin bacarığı və xəlifələrin təbliğatı sayəsində Anadolunun müxtəlif yerlərində yaşayan türkmanlar, qızılbaş ideologiyasına bağlanan digər tayfalar Azərbaycan və ətraf ərazilərdə Səfəvi dövlətini yaratmağa nail oldular.

**Səfəvi Ordusunda Təmsil Olunan Qızılbaş Türkman Tayfaları.** Mənbələrdə Səfəvilər dövlətinin qurulmasında mühüm rol oynayan Qızılbaş türkman tayfalar haqqında geniş məlumatlar var. Oruc bəy Bayat 32 tayfa və oymağın adını çəkmiş və dövlətin bütün vəzifələrinin onların əlində olduğunu göstərmişdi. Onun adlarını qeyd etdiyi bu 32 oymaq tayfa və el arasında əhalinin sayısına görə ən iriləri ustaclı, şamlı, əfşar, türkman, qacar, zülqədər, təkəli və bayat tayfaları idi [14, 90]. Səfəvi dövlətinin güclü əmirləri bu tayfalardan çıxmışdır. Əslində bu türk boyları Qaraqoyunlu və Ağqoyunluların dövründə dövlətin qurulmasında və idarəsində birinci dərəcəli mövqe-

yə sahib olmasalar da, Səfəvilərin əsas hərbi siyasi dayağı olmuşdurlar.

Şahin Fərzəliyev **şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər kimi** Səfəvilərin arxalandıqları yeddi tayfanın **adını çəkərək yazır ki, bu tayfalar "müqəddəs" Səfəvi şeyxlərinin itaətinə girərək özlərini mürid, sufi, dərviş adlandırsalar da, həqiqətdə Səfəvilərə xidmət edən qoşun funksiyasını daşıyırdılar** [15, 65].

Müəllifi məlum olmayan Səfəvi dövrü mənbəsi hesab edilən "Tarix-i Qızılbaşan" əsərinə görə qızılbaş boyları sağda və solda olmaq üzrə iki qismə bölünür: Sağ cinahda yerləşənlər və sol cinahda yerləşənlər [16].

Qızılbaş tayfalarının belə ayrılması görünür onların ordudakı yerləşdikləri cinahlara görə verilmişdir. "Tarix-i Qızılbaşan" əsərinin Şah Abbas dövründə yazıldığını nəzərə alsaq [17, 157]. , onun dövründə qızılbaşların hakimiyyətdən kənarlaşdırılması fikrinin real olmadığını görərik. Səfəvilər dövründə qızılbaşların cəmiyyətdə xüsusi yerləri olduğu üçün onlar haqqında belə bir kitabın yazılmasına ehtiyac hiss olunmuşdur.

Əsərdə sağ cinahda şamlı və rumlu tayfasının, həmçinin ağacəri, bayramlı, əkrəmli, ördəkli və qaraçarlu boyların adı çəkilir [16, 9]. Lakin onlar haqqında geniş məlumat verilmir. Belə düşünürük ki, bu qruplar qızılbaşlar içərisində yer almış ilk boylardan olsalar da, kiçik qruplar olduqları üçün müəllif sadəcə onların adını çəkməklə kifayətlənmişdir. Əsərdə qızlbaşların sol cinahı olaraq isə ustaclı, zülqədər (zülqədərli), əfşar və qacarların adı çəkilmişdir [16, 75-94].

Digər bir mənbə olan İsgəndər bəy Münşinin "Tarixi-aləmara-yi Abbasi" adlı əsərində də Səfəvi tarixində vacib rol oynamış on yeddi boy və onların əmirləri haqqında məlumatlara yer verilmişdir. Bunlar şamlu, ustaclu, türkman, rumlu, zülqədər, əfşar, qacar, təkəli, hinisli (xınıslı), talış, alpəvud, çəpüslü, kürd, baruki, çəkənli, çağatay və şeyxoğullarıdır [18, 244].

Z.Bayramlı İsgəndər bəy Münşinin "Tarixi-aləmara-yi Abbasi", Əhməd Yusif Qəzvinin "Xolde-bərin" adlı əsərlərində qızılbaş-türk tayfaları haqqında materialları təhlil edərək onların 1576 və 1628-ci il siyahıları üzrə hakimiyyətdə təmsil olunan əmirlərinin sayını dəqiqləşdirmişdir. O, eyni zamanda qızılbaşlığı qəbul etməmiş türk tayfaları və onların əmirləri haqqında da məlumat vermişdir. Z. Bayramlının hesablamalarına görə, 1576-cı il siyahısı üzrə hakimiyyətdə təmsil olunan türk əmirlərinin sayı 72, 1628-ci il siyahısı üzrə isə 54 nəfər olmuşdur [19, 61-65].

Ayrı-ayrılıqda bu tayfalardan bəhs edərkən ilk öncə şamlı tayfasının adını çəkməliyik. "Qızılbaşlar tarixi"nə görə, Qızılbaş boylarının sağ cinahına aid olan şamlıların kökü adından da məlum olduğu kimi Hələb, Şam və Suriyanın digər bölgələrinə aiddir. Şamlılar Şimali Suriyada yaşayan və Osmanlıda Hələb türkləri deyə adlandırılan geniş türkman əhalisindən ayrılaraq Səfəvilərə birləşən qruplara verilən ümumi addır [16, 21]. "Tarixi-alə-

mara-yi Abbasi"də deyilir ki, onlar (şamlılar) Şah İsmayılın dövründə də oymaqların ən böyüyü sayılırdılar və ən məşhur boylardan idilər [18, 138]. Şamlı tayfası Səfəvilərin ideologiyasını qəbul edən ilk türkman tayfalarından biridir.

"Tarixi-aləmara-yi Əmini" də qeyd edilir ki, Şeyx Heydər 1488-ildə Dağıstana səfər edərkən iki aya qədər dayandığı Kür çayı sahilində onun ordusuna qatılan boylar içərisində şamlıların da adı çəkilir [20, 71-72]. Şah İsmayıl gizlədərək onu Ağqoyunlu təqiblərindən qoruyan "7 böyük sufi" qızılbaş nümayəndəsinin içərisində də şamlıların təmsilçisi var idi.

Səfəvilər dövlətinin qurulmasından əvvəl təriqətin ən vacib kadrları sayılan bu yeddi şəxs tarixdə "Lahican sufiləri" deyə adlandırılır. Bunun səbəbi onların bir müddət Lahicanda İsmayıl Mirzə və qardaşının yanında qalıb təriqətin işlərini idarə etmiş olmalarıdır. Lahicandan böyük qayə ilə ayrılan Mirzə İsmayılın ordusunda da şamlı tayfası önəmli mövqedə təmsil olunurdu.

Şah İsmayıl Təbrizə daxil olduqdan sonra idarəçilik vəzifələrini qələbəsində xüsusi əməyi olan tayfalar arasında bölür. O, vəkil, əmürül-üməra, tavaçıbaşı vəzifələrini şamlılara vermişdir. Faruk Sümer yazır ki, əmirülümәra vəzifəsi Hüseyn bəyə həvalə edildi. O, Şeyx Heydərin ən önəmli xəlifələrindən olmuş və "lələ" ləqəbi daşımışdır [3, 47]. Lələ adı Səfəvilərdə tərbiyəçilərə verilən ad idi. Hüseyn bəy də Şeyx Heydərin oğlanlarının tərbiyəçisi olduğu üçün o, tarixə Hüseyn bəy Lələ olaraq düşmüşdür. Şah İsmayıl ləsinə çox güvəndiyi üçün dövlətin ən mühüm vəzifələrindən birini ona tapşırmışdır. Daha sonra isə Xorasanın fəthi ilə Hüseyn bəy Şamlı Şah İsmayıl tərəfindən Hələbə əmir olaraq göndərilmişdir.

"Tarix-i Qızılbaşan"da adı keçən görkəmli şamlı nümayəndələrindən biri də Əbdi bəydir. Onun ilk dəfə Sarıtərcanda iki yüz əsgərlə İsmayıl Mirzənin dəstələrinə qatıldığı haqqında məlumat verilir [16, 22]. Həmçinin İsmayıl Səfəvinin Gülüstan qalasının mühasirəsini yarımçıq qoyub, Naxçıvana doğru hərəkət etmək barəsində düşündüyü zaman Əbdi bəylə məsləhətləşməsi ona nə qədər dəyər verdiyini göstərir. Əbdi bəy Məkri bölgəsində kürdlərlə döyüş zamanı öldürülür. Onun oğlanları Durmuş bəy və Hüseyn bəy də Şamlıların tanınmış nümayəndələrindən olmuşdur [3, 47-48]. Şah İsmayılın çox sevdiyi Durmuş bəy ona çox sadiq biri idi. Şah İsmayıl İsfahanın idarəsini ona tapşırdığı zaman Durmuş bəy Hüseyn İsfahanini özünə vəzir təyin edərək İsfahanın idarəsini ona tapşırmış, özü isə daim qızılbaş ordusunda vuruşmuş, Şahın yanında yer almışdır. Durmuş bəy Çaldıran döyüşü zamanı Şah İsmayılın məsləhətləşdiyi ilk şəxslərdən olmuşdur. Bu döyüşdən əvvəl ustaclıların döyüş taktıkasını qəbul etməyən Şah İsmayıl Durmuş bəyin məsləhəti ilə hərəkət etmişdir. Ona görə də bəzən çaldıran məğlubiyyətinin səbəbkarının Durmuş bəy olduğu deyilir. "Aləmara-yi Şah İsmayıl" əsərində qeyd edilir ki, Şah İsmayıl Çaldıran döyüşündən sonra yoxa çı-

xan xanımı Taclı Bəyimi axtarmaq işini də Durmuş bəyə tapşırmış və bu iş üçün 300 nəfəri də onun himayəsinə vermişdir [21, 401]. Bu da onun Şahın ən güvəndiyi şəxslərdən olduğunu deməyə əsas verən faktlardan biridir. Durmuş bəy təxminən 1526-cı ildə xəstələnərək vəfat etməşdir.

Səfəvilərin qələbəsində mühüm rol oynamış digər bir qızılbaş tayfası rumlu tayfası idi. "Tarix-i Qızılbaşan"da yer alan məlumata görə, bu tayfa Tokat, Sivas, Amasya və Rumun digər bölgələrindəndir [16, 27]. Onlar da Anadoludan gələrək Səfəvilərə qoşulan, dövlətin yaranması uğrunda gedən mübarizədə fəal iştirak edən və İsmayılın qələbəsində xüsusi xidmətləri olan məşhur türk tayfalarındandır. Rumluların bir hissəsi yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olsa da, bir qismin də isə şəhərlər mədəniyyəti formalaşmışdır. Onların "rumlu" olaraq adlandırılmasının səbəbi Rum ölkəsindən gəlmiş olmaları idi.

Rumlu tayfasının Səfəvilərə meyl etməsinin Şeyx Xoca Əli dövründə (1391-1429) baş vermişdir. Əmir Teymurun Osmanlını məğlub etdikdən sonra əsir götürdüyü rumluları Səfəvi şeyxi Şeyx Xoca Əlinin istəyi ilə sərbəst buraxmasının ardından rumlular təriqətə bağlanmışdılar. Səfəvilərin qələbəsində onların da böyük xidmətləri olmuşdur.

Rumluların ən məşhur nümayəndəsi olan Həsən bəy Rumlunun adını xüsusi qeyd etmək lazımdır. Şah İsmayıla dəstək olan məşhur rumlu sərkərdəsi və Səfəvi dövlətində əmir əl-ümərə olan Div Sultanın (vəfatı 1527) nəvəsi, dövrün məşhur tarixçisi Həsən bəy Rumlu bizə Səfəvilər dövlətinin tarixini öyrənmək üçün mötəbər mənbə miras qoymuşdur. Demək ki, rumluların Səfəvilərə hakimiyyəti ələ almaqda arxa-dayaq olmaqla bərabər onların tarixinin gələcək nəsillərə çatdırılması işində də xüsusi xidmətləri olmuşdur. Həsən bəy Rumlu əldə etdiyi bilgilərlə yazdığı "Əhsənüt-təvarix" əsəri ilə bir rumlu nümayəndəsi olaraq təkcə Səfəvilər üçün yox, ümumilikdə Azərbaycan tarixi üçün xüsusi xidmət göstərmişdir [22, 24].

Osmanlı ərazisində Səfəvi tərəfdarı olan rumluların üsyanı baş vermişdir. Belə ki, Sultan Səlimin dövründə Şah İsmayılın istəyi ilə Səfəvi ərazilərinə köçmək istəyən rumlular ayağa qalxmışlar. Həsən Bəy Rumlu yazır ki, Rumlu nümayəndəsi Nurəli Xəlifə üsyanı nəticəsində Osmanlının Malatya valisi təyin etdiyi Faiq bəy öldürülmüş, hətta rumlular Tokat ərazisində Şah İsmayıl adına xütbə oxudaraq bu ərazinin Səfəvi ərazisi olduğunu elan etmişlər [23, 256]. Bu üsyanda xeyli sayda Osmanlı əsgəri də öldürülmüşdür. Hadisə Səfəvi təbliğatının Osmanlının daxilində nə qədər güclü olduğunu göstərmişdir.

Səfəvi hökmdarı Şah Təhmasibin dövründə (1524-1576) rumlu tayfasının idarəçilikdəki mövqeyi zəifləyir əsas idarəçilik təkəli tayfasının əlinə keçir. Bəs təkəlilər kimlər idi?

Tarix-i Qızılbaşan"da verilən məlumata görə, Menteşe, Kermiyan, Ay-

dın, Sərxan, Həmid, Ədasya illərinə (il- ərazi vahididir) Təkə ili (Təkə eli) deyilirdi [16, 51]. Bu ərazi indiki Türkiyənin Antalya ərazisinə uyğun gəlir. Müasir dövrümüzdə də İran ərazisində şahsevən birlikləri daxilində təklə və ya təhlə adını daşıyan boylar var. Ehtimal ki, bunlar da tarix mətnlərində qarşılaşdığımız təkəlilərin nəslillərinin davamçılarıdır. Təkcə İran ərazisində deyil, Şimali Azərbaycanın ərazisində Masallı, Cəlilabad, Ağsu, Kürdəmir, Bərdə, Goranboy rayonlarında yerləşən Təklə, Təhlə kəndləri vardır.

Təkəlilərin Səfəvilərə meyl etməsi Həsən baba Təkəli ilə başlayır. O, Şeyx Cüneydin (1447-1460), daha sonra isə Şeyx Heydərin (1460-1488) yanına gələrək xəlifəlik vəzifəsinin ona tapşırılmasını xahiş edir. Həsən baba Təkəli Təkə elinə getmək üçün mürşidi kamildən (Şeyx Heydərdən) icazə alır [25, 41]. Onun təbliğatlarının nəticəsində təkəlilər Səfəviyyə təriqətinə yönəlir. Hətta 1511-ci ildə onun oğlu Şahqulunun başçılığı ilə Antalya bölgəsində Osmanlı əleyhinə təkəlilərin üsyanı baş verir. Üsyan nəticəsində on beş min təkəlinin Səfəvi ərazisinə köçdüyü məlumdur. Belə ki, üsyanın məğlubiyyətindən sonra Osmanlı ərazisində artıq qala bilməyəcəklərini düşünən təkəlilər Səfəvilərə üz tutdular. Bu köç hadisəsindən sonra Səfəvilər dövlətində təkəlilərin mövqeyi daha da möhkəmlənmişdir.

Şah İsmayılın Səfəvilər dövlətini qurmasında təkəlilərin böyük xidmətləri olmuşdur. O, dövlətin möhürdarlıq işlərini təkəlilərə tapşırmışdır. Ustaclı-rumlu rəqabətindən sonra da daha çox önə çıxan qövm təkəlilər olmuşdur. Hətta Bağdadın ikinci dəfə Səfəvilərin idarəsinə keçməsindən sonra Şah Təhmasib şəhərin idarəsini təkəlilərə həvalə edir [19, 37].

Təkəlilərin dövlətdə yüksək mövqeyi davamlı olmamış, 1531-ci ildə Səfəvi tarixində şamlılarla təkəlilər arasında ixtişaşlar baş verir. Şah Təhmasibi də çətin vəziyyətdə qoyan bu hadisə nəticəsində uduzan və hökmdarın qəzəbinə tuş gələn təkəlilər olmuşdur. On səkkiz yaşlı Şah Təhmasib bu işdə günahkar olan təkəliləri aradan qaldıraraq hakimiyyəti öz əlində cəmləşdirmişdir. Beləliklə, təkəlilər dövlət idarəçiliyindən uzaqlaşdırılmışdır.

Səfəvilərə arxa-dayaq olan digər bir türk boyu ustaclılar idi. Qızılbaş tayfalarının sol cinahında yer alan ustaclıların Şah İsmayıl Ərzincanda olarkən Səfəvilərə birləşdiyi haqqında "Tarix-i Qızılbaşan" əsərində məlumat verilmişdir [16, 75]. Oruc bəy Bayat da öz siyahısında onları ən önəmli boy olaraq qeyd etmişdir [15, 78]. Anadolunun Sivas, Amasya, Tokat ətrafı ərazilərində yaşayan, bəzi oymaqları Kırşehirə yayılan, Ulu Yörük adlı böyük bir cəmiyyətə aid olan ustaclılar Şeyx Cüneyd və Şeyx Heydərin Anadoludakı müridləri idilər.

Ustaclılar da Şah İsmayılı Mehdi olaraq görür, onun ifadələrini ilahi ifadə kimi qəbul edir və onunla birlikdə canla-başla vuruşurdular. Şah İsmayıl bu dəstəyin qarşılığında II Bəyazidə məktub yazaraq Ərzincanda ona qoşulan ustaclıların yaşlı nümayəndələrinin uşaq və qadınlarının qorunmasını

xahiş etmişdir [3, 19]. İsmayıl Mirzə Bakı qalasının və qalanın xəzinəsinin ələ keçirilməsi işini ustaclılara tapşırmışdı. Dövlət qurulduqdan sonra ustaclıların Şahın yanında mövqeyi daha da güclənir. Diyərbəkirin idarəsi onlara həvalə olunur. 1510-cu ildə isə Şah Hüseyn bəy Ləlәni əmirül-ümara vəzifəsindən uzaqlaşdıraraq yerinə Məhəmməd Ustaclını təyin edir və ona xan ünvanı verir [24, 178]. Bu da dövlət daxilində ustaclıların nə qədər güclü mövqe əldə etdiklərini göstərir. Dövlətin qurulmasından sonra Anadoluda qalan ustaclıların Səfəvilər ərazisinə köçməsi prosesi davam edir və bu da dövlətdə ustaclıların təsirinin artması ilə nəticələnir. Tayfalar arasında hakimiyyət uğrunda mübarizələr başladıqda ustaclılar da bu prosesə qatılırlar. 1523-1524-cü illərdə ustaclılarla rumlu tayfası arasında əmirül-ümara və vəkillik vəzifəsi uğrunda mübarizə başlayır və nəticədə iki tayfa arasında döyüşlər olur. Sonda Şah Təhmasib ustaclıları bağışlayır və bundan sonra onlar dövlət işlərində yaxından iştirak edirlər.

Böyük qızılbaş boylarında olan zülqədərlərin də Səfəvi tarixində xüsusi yeri olmuşdur. Onlar oğuzların boz ox qolundan idilər [3 48]. Qızılbaşların sol cinahında yer alan bu tayfalar Anadolunun Elbistan və Maraş bölgəsində məskunlaşmışdılar. Bəzən isə onların Diyərbəkirdə yaşadıqları deyilir. Şeyx Cüneydin Ərdəbilə qayıdarkən onunla birlikdə zülqədərlərin də bura gəldiyi və Ərdəbil təkkəsinə xidmət etdikləri deyilir. Onların məşhur nümayəndələrindən biri Dədə Abdal bəy olmuş [3, 48] və o, Şeyx Heydərin Şirvan yürüşündə iştirak etmişdir. Səfəvi tarixində adı xüsusi yeri olan Üba xatun da zülqədərlərin nümayəndəsi olmuşdur. O, Ərdəbildə İsmayıl Mirzəni Ağqoyunlulardan gizlədib saxlayan şəxs idi. İsmayıl Mirzəni Lahicana aparanlar arasında da zülqədərlərin nümayəndəsi Dədə Abdal bəy də var idi. İsmayılın qələbəsində onların xüsusi rolu olmuş və onun ordusunda beş minə qədər zülqədər əsgəri xidmət etmişdir [16, 81]. Şah İsmayılın qələbəsindən sonra zülqədər tayfası Səfəvi torpaqlarında yerləşmişdir.

Şah İsmayıl Təbrizə daxil olduqdan sonra dövlət vəzifələrini tayfalar arasında bölərkən Dədə Abdal bəy Zülqədərə qorçubaşı vəzifəsini verir. Bununla da dövlətdə qorçubaşı vəzifəsi zülqədərlərin əlinə keçmiş olur. Şirazın idarəsi də onlara həvalə edilir. Z. Bayramlının məlumatına görə, Tabasaranda Şeyx Heydərin ölümü hadisəsinin tədqiqi işi də qorçubaşı Dədə bəyə tapşırılır [19, 94]. Beləliklə, Şeyx Cüneydlə qızılbaş ideologiyasına bağlanan zülqədərlər Şah İsmayılın rəhbərliyi altında Səfəvilər dövlətinin qurulmasına köməklik göstərərək, qızılbaş ideologiyasına bağlı olan tayfalar kimi tarixə adlarını həkk etdirmişlər.

Qızılbaş ideologiyasını qəbul edib, ona xidmət edən tayfalardan biri də əfşar tayfasıdır. "Əfşar" sözünün mənası "ovda məharəti olan" deməkdir [16, 84]. Əfşarlar qədimdən bəri Azərbaycan ərazisində yaşayan türk tayfalarından olub Səlcuqlular dövründə bu ərazilərdə məskunlaşmışlar. Bu tay-

fanın əsas yerləşdiyi ərazi Xuzistan idi.

Əfşarların bir hissəsi Şamdan gələrək İsmayıl Mirzəyə qoşulmuş, onun yürüşlərində iştirak edərək Səfəviləri qələbəyə aparan əsas tayfalardan biri olmuşdular. Bəzi mənbələrə görə, yeddi min [24, 95], bəzilərinə görə isə on iki minlik [25, 38] əfşar əsgəri İsmayıl Mirzə Ərzincana gəldiyi zaman onun qoşununa qatılmışdır.

Mənbələrə görə, Çaldıran döyüşü zamanı Şah İsmayılın atı bataqlığa düşür və Osmanlı əsgərləri dərhal ona doğru hücuma keçir. Bu məqamda əfşar soyundan olan sərkərdə Sultanəli Mirzə Əfşar Şah İsmayıla oxşarlığı səbəbilə qabağa keçərək özünü Şah İsmayıl kimi tanıdır [24, 241-243]. Osmanlı əsgərləri onu ələ keçirərək Sultan Səlimin hüzuruna gətirirlər. Ancaq onun hiyləsi anlaşıldıqdan sonra o, Sultan Səlimin əmri ilə öldürülür [18, 43]. Bu hadisənin tarixi mənbələrdə yer alan həqiqət, ya da rəvayət olduğunu dəqiq bilmədiyimizi qeyd etmək istəyirik.

Qızılbaş ideologiyasını qəbul edib, Səfəvilərin qələbəsinə köməklik göstərən digər bir türk tayfası qacarlar idi. "Tarixi Qızılbaşan"da qədimdən bəri Azərbaycanın Gəncə və Bərdə ərazisində yaşadıqları qeyd edilən bu tayfanın bir qismi isə Şamdan gəlmişdir [16, 91]. Qacar tayfaları Şah İsmayılı canla-başla qoruduqları üçün onların Səfəvi xanədanında yeri başqa idi. Onlar daha çox hörmət görən tayfalardan idilər. Səfəvi şahlarına hərbi təlim keçmək üçün yuxarı baş qacarlarından tez-tez sipahilər, ordu rəhbərləri və hakimlər təyin olunmuşdur. Onlar digər qızılbaş boylarından fərqli olaraq möhkəm hərbi bacarıqlara sahib olduqlarına görə, hərbi məsələlərdə ən yüksək vəzifələr qacarlara həvalə edilirdi.

"Tarixi-aləmara-yi Əmini"də qeyd edilir ki, Şeyx Heydər Ağqoyunlu və Şirvan ordusunun xəbərlərini də qacarlar vasitəsi ilə öyrənirdi [20, 77]. Bu onu göstərir ki, Ağqoyunlu və Şirvan ordusunun daxilində Şeyx Heydərin qacar tayfasından olan xəfiyələri var idi. Qacarlar bu dövrdə hərbi bacarıqları sayəsində Ağqoyunlu və Şirvan qoşunun tərkibində də önəmli mövqelərə sahib idilər.

İsmayıl Mirzə Ərdəbilə doğru hərəkət etdiyi vaxt yeddi nümayəndə, o cümlədən qacarların nümayəndəsi onun yanında idi və İsmayıl Mirzə daim onlarla məsləhətləşirdi. İsmayıl Mirzə Ərzincana çatdığı zaman burada ona qoşulan tayfalar arasında qacarlar var idi. Onu da qeyd edək ki, qacarların hamısı deyil, bir qismi Şah İsmayılla birləşmişdir [3, 53-54]. Ancaq İsmayılın bütün qələbələrində qacarların xidmətləri böyük idi.

Qızılbaş ideologiyasına arxa-dayaq olan bu böyük türk tayfalarından əlavə ideolgiyanı qəbul edən və dövlətin qurulmasında xidməti olan kiçik tayfalar da var idi. "Tarix-i Qızılbaşan" əsərində bu tayfalar haqqında qısa da olsa məlumat verilir. Bəzilərinin isə sadəcə adları çəkilməklə kifayətlənilir [16; 110]. Faruk Sümer isə əsərində bu tayfaları böyük və kiçik tayfalar yarım-

başlığı ilə ayrı-ayrılıqda araşdırmışdır. O, kiçik tayfalar yarımbaşlığı adı altında varsaq, çəpni, ərəbgirni, turqutlu, bozcalı, əcirli, xınıslı, sədli, alpavud, bayat, qaramanlı, bayburtlu, baharlı, ispirli tayfalarının adını çəkir [3].

Bu kiçik tayfalardan varsaqların əsli Anadolu torpağı olan Karanmandandır və onlar Qaraqoyunluya (Baharlılara) bağlı olan boylardandırlar [16, 68]. "Tarix-i Qızılbaşan" da Qaraqoyunlu qövmləri bölməsinin daxilidə varsaqlardan əlavə aplavut, baharlı, cəgirli, qaranmalı, sədli, bayburtlu, hacılı, qaracadağlı və evoğlularının da adı çəkilir. Əsərdə bayandurlu, ərəbgirli, xınıslı, mosullu, purnak və şeyxavənd tayfaları Ağqoyunlu qövmləri daxilində verilir [16, 68].

Şah İsmayılı qorumaq, ona hərbi və dini təlim keçməklə vəzifələndirilən inanılmış yeddi qızılbaş tayfa nümayəndəsinin arasında xınıslıların da nümayəndəsi vardı. Şeyx Heydərin arxalandığı müridlərindən biri olan Ayqut oğlu İlyas bəy də xınıslı tayfasından idi. Beləliklə, deyə bilərik ki, bu tayfalar kiçik olsalar da hər biri müəyyən mənada Səfəvilər dövlətinin qurulmasında iştirak etmişdir.

**Nəticə.** Nəticə etibarilə, türkmanlar İslamı qəbul etsələr də, öz qədim inanclarını və adət-ənənələrini qorumağa davam etmiş, İslamı keçmiş dinləri ilə birləşdirərək yaşatmışlar. Dini təhsil vəsaitlərinə çıxışlarının məhdud olması səbəbindən, İslamı dərvişlərdən və gəzəri şeyxlərdən öyrənmiş, onu "Quran" və sünnətə tam uyğun şəkildə deyil, daha çox öz yaşam tərzinə uyğun olaraq qəbul etmişlər. Bu həyat tərzi, onların Səfəviyyə təriqətinə meyl etməsinə səbəb olmuşdur, çünki təriqətin ideologiyası türkmanların dini və mədəni baxışlarına yaxın idi.

Bundan əlavə, Osmanlı imperiyasının mərkəzləşdirmə siyasəti nəticəsində köçəri təsərrüfatın məhdudlaşdırılması, həmin vaxta qədər belə təsərrüfatla məşğul olmağa alışmış türkmanları dövlətdən narazı salmışdır. Bu narazılıq, türkmanların Səfəviyyə təriqətinə yönəlməsinə və Ərdəbil dərgahına dəstək verməsinə səbəb olmuşdur.

Türkmanların bir qızılbaş olaraq Səfəvi dövlətinin qurulmasına verdikləri dəstək yalnız üsyanlar və köçlərlə kifayətlənməmiş, həm də Səfəvi dövlətinin davamlı olaraq güclənməsinə səbəb olan əsas qüvvə olmuşdur. Səfəvilər dövləti, qızılbaş tayfalarının gücündən həm hərbi, həm də ideoloji məqsədlər üçün geniş şəkildə istifadə etmiş və onları dövlətin dayağına çevirmişdir.

Beləliklə, türkmanların Səfəviyyə təriqətinin ideoloji istiqamətinin və Səfəvi dövlətinin formalaşmasındakı rolu, yalnız hərbi və siyasi müstəvidə deyil, həm də mədəni və dini müstəvidə özünü göstərmişdir. Onlar, Səfəvilərin ideoloji və sosial bazasının formalaşmasında mühüm rol oynamış, dövlətin legitimliyi və dayanıqlığını artırmışdır. Bu tarixi proseslər, türkmanların mədəniyyətinin və dini inancının qızılbaş ideologiyası ilə sintezini təmin

etmişdir ki, bu da onların uzunmüddətli mübarizəsini və qələbəsini mümkün etmişdir.

Bu nəticələr, həmçinin tarixşünaslıqda Səfəvilərin siyasi strategiyalarını və mədəni mühitini, qızılbaşlığı anlamağa kömək edir, beləliklə, türkmanların bu dövrdəki rolunun əhəmiyyətini vurğulayır.

## ƏDƏBİYYAT


1. Sümer F. Türkmenler / İslam Ansiklopedisi. - Ankara: TDV yayınları, - 2012, IV c., - s. 607-611.
2. Ağayev R. "Türkman" anlayışı və onun etimologiyası ərəb və farsdilli müəlliflərin əsərlərində //- Bakı: Qarapapaqlar, - 2015. № 8, (96). - s.12-18.
3. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü (Şah İsmail ile Halefleri ve Anadolu Türkleri). - Ankara: Güven matbaası, - 1976. - 265 s.
4. Paşazade A. Osmanoğulları`nın tarihi. çev. ve günümüz dil. Ak. K.Yavuz - İstanbul: MAS matbaacılık, - 2003. - 615 s.
5. Dierl A.J. Anadolu Aleviliği / alman. terc. F.Yiğit - İstanbul: ANT yayınları, - 1991. - 157 s.
6. Eröz M. Türkiye'de Alevilik ve Bektaşilik. - İstanbul: Ötüken neşriyat, - 2014. - 479 s.
7. Ocak A.Y. Babailer isyanı (Aleviliğin tarihsel altyapısı). - İstanbul: Dergah, - 2016. - 284 s.
8. Müneccimbaşı A. D. Sehaif ül Ahbar fi Vekayi ül Asar / arap. terc. İ. Erünsal. - İstanbul: Kervan Kitapçılık, - 1979. I c. - 300 s.
9. Yıldırım R. Anadolu'da İslâmiyet: Gaziler Çağında (XII-XIV Asırlar) Türkmen İslam Yorumunun Sünni-Alevi Niteliği Üzerine Bazı Değerlendirmeler // - Ankara: Osmanlı Araştırmaları. - 2014. S. XLIII, - s. 93-124.
10. Akyel S. Klassik kaynaklara göre XVI yüzyılda Osmanlı devletinde meydana gelen Kızılbaş ayaklanmaları // - İstanbul: Tarih Okulu Dergisi, - 2014. S. XIX, - s.111-148.
11. Tadhkirat al-Mulûk: A Manual of Safavid Administration (circa 1137-1725) / trans. V. Minorsky. - London: Kieth Co., - 1943. - 130 p.
12. Karaca B. *Safavi Devleti'nin Ortaya Çıkışı* ve *II. Bayezid Dönemi Osmanlı Safevi* İlişkileri // - Ankara: Türkler, Yeni Türkiye yayınları, - 2002. IX c., - s. 409-418.
13. Gölpınarlı A. Pir Sultan Abdal. - İstanbul: Derin, - 2010. - 194 s.
14. Üç Osmanlı Tarihi: Oruç Beğ Tarihi / hazır. N. Atsız. - Ankara: Ötüken, - 1968. - s.11-131.
15. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV - XVI əsrlər). - Bakı: Azərbaycan, - 1995. - 145 s.
16. Kızılbaşlar tarihi: Tarihi Kızılbaşan / türk. çev. T. Gündüz. - İstanbul: Yeditepe yayınevi, - 2015. - 136 s.
17. Aydoğmuşoğlu C. Safevi Tarih Yazıcılığı ve Safevi Çağı Kronikleri // - Ankara: Türk Tarihi Araştırmaları Dergisi – S. 1, - s. 143-164
18. İskəndər bəy Türkmən. Aləm Ara-yi Abbasi /red. Ağa Sühəyli Xansari – Tehran: İslamiya çapxanası, - 1317/1939. - 320 s.
19. Bayramlı Z.H. Azərbaycan Səfəvilər dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. - Bakı: Avropa nəşriyyatı, - 2015. - 348 s.
20. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-ара-йи Амини / пер. с английского Т.А. Минорской - Баку: Елм, - 1987. - 170 с.
21. Musalı N. S. I Şah İsmayılın hakimiyyəti ("Tarixi-aləmara-yi Şah İsmayıl" əsəri əsasında). - Bakı: Elm və təhsil, - 2011. - 482 s.

22. Həsən bəy Rumlu. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı) / Fars dil. tərc. və şərh. t.e.d. O.Əfəndiyev, t.ü.f.d. N. Musalı - Kastamonu: Uzanlar, - 2017. – 661 s.
23. Uzunçarşılı İ.H. Osmanlı tarihi. - Ankara: Türk Tarih Kurumu Basınevi, - 2011. c. 2, - 756 s.
24. Aləm Ara-yi Səfəvi: anonim Səfəvi tarixi / tərtib. Yədullah Şükri. - Tehran: İntişarat İttila-'at, -1363/1985. - 688 s.
25. Xacə Zeynəlabidin Əli Əbdi bəy Şirazi. Təkmilətül-əxbar (Səfəvi dövrü-Təhmasib dövrünün tarixi) / Fars dil. tərc., müq. və şərh. Ə. H. Rəhimli - Bakı: Elm, - 1996. - 200 s.

## ДЕЯТЕЛЬНОСТЬ КЫЗЫЛБАШСКИХ ТЮРКМЕН В СЕФЕВИДСКОМ ОРДЕНЕ

**Гюнел А.РАХИМЛИ**

### РЕЗЮМЕ

Одной из ключевых причин успеха длительной борьбы шейхов Сефевидского ордена за политическую власть было наличие преданных и организованных сил. Под руководством такой выдающейся фигуры, как шах Исмаил, и благодаря единству сторонников кызылбашской идеологии, борьба Сефевидов, начавшаяся с религиозного шейхства, завершилась созданием централизованного государства. Изучение деятельности кызылбашских тюркских племён, сыгравших значительную роль в этой победе, позволяет осветить малоизученную тему в истории Азербайджана. В настоящей статье анализируется роль кызылбашских тюркменских племён на основе сопоставления исторических источников и историографических трудов, а также проводится их оценка в контексте становления Сефевидской державы.

**Ключевые слова:** Сефевидский орден, Шейх Джунейд, Шейх Гейдар, Кызылбаши тюркмены, Анатолия

## THE ACTİVİTİES OF QIZILBASH TURKMENS IN THE SAFAVID ORDER

**Gunel A. RAHIMLI**

### SUMMARY

One of the key reasons behind the success of the protracted struggle for political power by the sheikhs of the Safavid Order was the presence of loyal and committed forces. Under the leadership of a figure such as Shah Ismail, and through the unity of groups devoted to Qizilbash ideology, the Safavid movement — which began as a religious sheikhdom — ultimately culminated in the establishment of a centralized state.The study of the role and activities of the Qizilbash Turkmen tribes, who played a decisive role in this success, offers valuable insights into a relatively underexplored aspect of Azerbaijani history. This article explores the activities of these tribes through the analysis, comparison, and critical evaluation of historical sources and historiographical works.

**Keywords:** Safavid order, Sheikh Junaid, Sheikh Haydar, Qizilbash turkmens, Anatolia